*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 14 oktyabr 2015-ci il | № 78 (1994) | Qiyməti 25 qəpik


## “Terrorçuluqla mübarizə bütün bəşəriyyətin işi olmalıdır”

Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının 18-ci iclasının iştirakçılarını qəbul edib. Dövlətimizin başçısı görüşdəki çıxışında bildirib ki, Azərbaycan beynəlxalq terrorizmə qarşı mübarizədə həmişə çox fəal iştirak edib. Bu mövzunu biz həmişə ən yüksək forumlarda qaldırmışıq. Deməliyəm ki, bir neçə il əvvəl sizin təmsil etdiyiniz ölkələrin də dəstəyi ilə Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzv seçiləndə və biz Təhlükəsizlik Şurasının iclaslarına sədrlik edəndə məhz beynəlxalq terrorçuluqla mübarizə mövzusunu ortaya atdıq. Bu, vətəndaşlarımızın həyat və təhlükəsizlik məsələsi olduğuna görə bizim fəaliyyətimizin prioritetlərini göstərir. Biz beynəlxalq terrorizmə qarşı mübarizənin fəal üzvüyük. Biz regional təhlükəsizliyin möhkəmlənməsinə çox böyük töhfə veririk. Hesab edirəm ki, Azərbaycan bizim yerləşdiyimiz regionda sabitliyin möhkəmləndirilməsində çox mühüm rol oynayır. Sabitlik və inkişaf gündəlik həyatdan təcrid edilə bilməz. Terrorçuluqla mübarizə bütün bəşəriyyətin işi olmalıdır. Dünya birliyinin beynəlxalq terrorçuluqla mübarizədə səylərinin birləşdirilməsi regional və beynəlxalq təhlükəsizliyin əsas şərtidir.

Prezident çıxışında qeyd edib ki, Azərbaycan həm də terrorizmdən zərər çəkən ölkədir. Müstəqilliyin ilk illərində, 1990-cı illərin ərəfəsində və 1990-cı illərin əvvəllərində erməni terrorçu təşkilatları bizim ərazimizdə 30-dan çox terror aktı törədib. Onlar metronu, gəmiləri, şəhərlərarası avtobusları partladıblar. Bu terror aktları nəticəsində 2 mindən çox günahsız Azərbaycan vətəndaşı həlak olub.

Azərbaycana qarşı terror hücumları Azərbaycan torpaqlarının 1990-cı illərin əvvəllərində Ermənistan tərəfindən həyata keçirilən işğalçılıq siyasətinin tərkib hissəsi idi. Bu təcavüz nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisinin təxminən 20 faizi işğal olundu, 1 milyondan çox Azərbaycan vətəndaşı öz Vətənində qaçqın və məcburi köçkünə çevrildi. Biz son dərəcə ağır humanitar fəlakətlə üzləşdik. O zaman ölkənin iqtisadi vəziyyəti olduqca ağır idi. Praktiki olaraq, sənaye iflic vəziyyətə düşmüşdü, iqtisadiyyat dağılmışdı, inflyasiya ildə min faizdən yuxarı idi. Bu şəraitdə erməni təcavüzü nəticəsində bütün əmlakını, evlərini itirən bir milyon insan Bakıda və Azərbaycanın digər şəhərlərində sığınacaq axtarmağa məcbur oldu. O vaxt səkkiz milyondan bir qədər çox əhalisi olan ölkə üçün bir milyon qaçqın və məcburi köçkün yüksək göstərici idi.

Erməni işğalı yalnız beynəlxalq hüquq normalarının deyil, həm də bütün bəşəri normaların pozulmasıdır. Ölkələr arasında müharibələr, münaqişələr olur, lakin insanlıq simasını həmişə qoruyub saxlamağa səy göstərmək lazımdır. Xocalı faciəsi - dinc şəhərin erməni quldur dəstələri tərəfindən bir gecədə məhv edilməsi xalqımızın hansı vəhşiliklə üz-üzə qaldığını göstərir. Artıq 10-dan çox ölkə Xocalı faciəsini rəsmi olaraq soyqırımı kimi tanıyıb. Bunun məsuliyyəti isə hazırkı və əvvəlki Ermənistan rəhbərliyinin üzərinə düşür.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regional təhlükəsizliyə, sabitliyə böyük hədədir. Bu, bütün beynəlxalq hüquq normalarının pozulmasıdır. Ali beynəlxalq orqan olan BMT Təhlükəsizlik Şurası erməni işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələr yerinə yetirilmir. Biz BMT Təhlükəsizlik Şurasının qərarlarının icrasını tələb edirik. Bu, bizim qanuni tələbimizdir. Azərbaycan ictimaiyyəti BMT Təhlükəsizlik Şurası qətnamələrinin bəzi hallarda bir günə yerinə yetirildiyinə, bizim vəziyyətdə isə 20 ildən çox vaxt keçməsinə və qətnamələrin kağız üzərində qalmasına çox təəccüblənir, amma yəqin ki, böyük dərəcədə narazıdır. Bu, ikili standart siyasətidir. Bu, beynəlxalq hüquqa, ali beynəlxalq orqan olan BMT Təhlükəsizlik Şurasının qərarına hörmətsizlikdir.

Bax, biz bunlarla - ədalətsizlik, qeyri-obyektivlik, ikili standartlarla, bəzi hallarda isə işğalçının mükafatlandırılması ilə qarşılaşırıq. Ermənistan bütün tanınmış beynəlxalq normaları pozan təcavüzkar, işğalçı ölkədir. Axı, təkcə tarixi Azərbaycan torpağı və Sovet dövründə heç respublika da yox, vilayət muxtariyyəti olan Dağlıq Qarabağ işğal olunmayıb. Həmçinin, keçmiş Dağlıq Qarabağ Vilayətinin inzibati sərhədindən kənarda 7 rayon da işğal edilib. Bu rayonlarda praktiki olaraq ermənilər yaşamırdılar. Bütün bu rayonlarda azərbaycanlılar yaşayırdılar. Onlar qovulublar, onların evləri, bizim bütün tarixi abidələrimiz, məscidlərimiz, qəbiristanlıqlarımız dağıdılıb, muzeylərimiz qarət olunub. Bunu bu gün İrəvanda ən yüksək vəzifələrdə oturanlar ediblər. Onlar hərbi canilərdir. Biz həqiqəti deməliyik. Çünki həqiqəti deməyib sussaq, özümüzü heç nə olmamış kimi göstərsək, digər ölkələrdə də eyni hadisələr baş verəcək.

Ötən əsrin faşizmi və nasizmi ilə bu gün Ermənistanın işğal etdiyi torpaqlarda törətdikləri arasında heç bir fərq yoxdur. Bu, eyni mənalı anlayışdır. Dünya ictimaiyyəti bunu bilməli və regionda sülhün bərqərar olmasına səy göstərməlidir. Sülh isə yalnız ədalət əsasında bərqərar ola bilər. Azərbaycanın ərazi bütövlüyü istənilən ölkənin ərazi bütövlüyü kimi əhəmiyyət daşıyır və o, bərpa edilməlidir. Mən bunu ona görə deyirəm ki, siz - dost ölkələrin xüsusi xidmət orqanlarının rəhbərləri məsələnin məğzini daha müfəssəl biləsiniz. Erməni dairələri beynəlxalq birliyi aldatmağa, münaqişənin mahiyyəti, nəticələri barədə yanlış informasiya, şayiələr yaymağa, özlərini "qurban" kimi göstərməyə çalışırlar. Amma həqiqəti bilmək lazımdır. Həqiqət isə mənim dediyim kimidir. Mənim dediklərimi isə tarix, sənədlər, faktlar təsdiq edir.

Sonda dövlətimizin başçısı vurğulayıb ki, biz vətəndaşlarımızın təhlükəsiz həyatını təmin etmək üçün daha çox əlbir olmalı, səylərimizi birləşdirməliyik.

**AZƏRTAC-ın materialları əsasında**

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Biz iqtisadiyyatımızı gücləndiririk, ordumuzu gücləndiririk və istənilən vaxtda lazımi tədbirləri də görəcəyik

***Xəbər verildiyi kimi, Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.***



Dövlətimizin başçısı iclasdakı nitqində Azərbaycan iqtisadiyyatının uğurla inkişaf etdiyini vurğulayaraq “Azərbaycan xalqı təhlükəsizlik şəraitində, rifah içində yaşayır. Azərbaycanda vətəndaş birliyi, həmrəyliyi möhkəmlənir və bütün xalq bir amal uğrunda birləşib - Azərbaycanı gücləndirmək, Azərbaycanda sabitliyi daha da möhkəmləndirmək və sosial-iqtisadi inkişafı davam etdirmək”, - deyə bildirib.

Ənənəvi olaraq dövlətimizin başçısı yenə də ordu quruculuğu məsələlərinə diqqət yetirib, ölkənin hərbi potensialının gücləndirilməsindən danışaraq deyib:

- Daim diqqət mərkəzində olan sahə ordu quruculuğudur. Biz bu sahəyə daim böyük diqqət göstəririk. Bu da təbiidir, çünki Azərbaycan müharibə şəraitində yaşayır, müharibə bitməyib və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dondurulmuş münaqişə deyil. Bunu artıq hamı görür, o cümlədən bu məsələ ilə məşğul olan vasitəçilər.

Ordu quruculuğu gələn il də prioritet sahə olaraq qalacaq. Bu sahəyə nə qədər lazımdırsa vəsait ayrılacaq. İndi həm yeni texnikanın, silah-sursatın alınması, istehsalı prosesi gedir, eyni zamanda, hərbi hissələr üçün ən yüksək səviyyədə şəhərciklər, hərbi bazalar tikilir. Bu il Hərbi Dəniz Qüvvələrinin böyük bazası istifadəyə verilmişdir. Təmas xəttinə yaxın olan bölgələrdə yeni infrastruktur yaradılır və bizim döyüş qabiliyyətimiz artır. Təmas xəttindəki vəziyyət Azərbaycan ictimaiyyəti üçün sirr deyil. Biz tam üstünlüyü əldə etmişik, düşmənə sarsıdıcı zərbələr vururuq, düşmənin bütün təxribatlarına layiqli cavabımızı veririk.

Azərbaycan Prezidenti İlham Əliyev son bir neçə ayda cəbhə xəttində atəşkəsin işğalçı dövlətin hərbi bölmələri tərəfindən intensiv pozulması hallarını qeyd etdi və belə təxribatların ordumuz tərəfindən qətiyyətlə dəf edildiyini vurğuladı.

“Keçən ay düşmənin növbəti təxribatının qarşısı alındı. Bizə qarşı böyük təxribat hazırlanırdı, çoxsaylı diversantlar artıq təşkil olunmuş və səfərbər edilmişdi ki, Azərbaycanın mövqelərinə hücum çəksinlər. Bizim ordumuz o təxribatın qarşısını aldı. Preventiv zərbə vurmaqla düşmənə çox böyük ziyan yetirdi və bir çox işğalçılar məhv edildi. Əlbəttə ki, Ermənistan tərəfi dərhal həmişə olduğu kimi, hay-haray qaldırdı. Ancaq burada təbii sual yaranır, işğalçılar hansı ərazidə həlak oldular? Ermənistandamı? Xeyr, bizim torpağımızda. İşğal edilmiş torpaqlarda. Sual olunur, onların orada nə işi var? Özü də orada ölənlərin mütləq əksəriyyəti Ermənistan vətəndaşlarıdır, heç Dağlıq Qarabağ sakinləri deyil. Yəni, Ermənistan ordusu bizim torpaqlarımızda işğalçılıq siyasəti aparır. Bu, gün kimi aydın bir məsələdir. Əfsuslar olsun ki, bunu beynəlxalq ictimaiyyət, vasitəçilər görmək istəmirlər və işğalçıya ciddi siqnallar göndərilmir. Ona görə onlar azğınlaşıblar və bizə qarşı müxtəlif təxribatlara əl atırlar. Ancaq hər dəfə onların təxribatları iflasa uğrayır. Necə ki keçən ilin noyabrında bizim mövqelərimizə hücum edən helikopter məhv edildi. Bu ilin sentyabr ayında böyük itkilər verdilər və hər dəfə biz onların cəzasını verəcəyik”.

Bundan sonra da işğalçılara layiqli cavab veriləcəyini qeyd edən Prezident əminliklə bildirdi ki, biz ölkəmizin ərazi bütövlüyünü bərpa etməliyik və edəcəyik. “Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq prinsipləri əsasında öz həllini tapmalıdır. Ölkəmizin ərazi bütövlüyü heç bir başqa ölkənin ərazi bütövlüyündən əhəmiyyətsiz deyil. Məsələ beynəlxalq hüquq çərçivəsində, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır və tapacaq. Biz iqtisadiyyatımızı gücləndiririk, ordumuzu gücləndiririk və istənilən vaxtda lazımi tədbirləri də görəcəyik.

Erməni diktatoru hətta Ermənistanın rəsmi mövqeyinə tamamilə zidd olan bəyanatlar verir. Bəyan edir ki, Dağlıq Qarabağ Ermənistanın ayrılmaz hissəsidir. Birincisi, Dağlıq Qarabağ Azərbaycanın tarixi, əzəli torpağıdır və beynəlxalq hüquq nöqteyi-nəzərindən Azərbaycanın ayrılmaz hissəsidir. Bunu bütün dünya ictimaiyyəti, BMT belə qəbul edir və heç bir ölkə Dağlıq Qarabağı Ermənistanın tərkib hissəsi kimi qəbul etmir, müstəqil qurum kimi də qəbul etmir və qəbul etməyəcək. Ona görə bu, çox qəribə, yumşaq desək, qeyri-adekvat və görünür ki, çox gərgin psixoloji durumda verilən bəyanat həm Ermənistanı işğalçı ölkə kimi ifşa edir, həm də rəhbərliyini biabır edir. Çünki indi hər bir insan danışdığının məsuliyyətini daşımalıdır, xüsusilə böyük vəzifə sahibləri. Ancaq xunta rejimindən bundan artığını gözləmək də çətindir. Çünki Ermənistanın bugünkü hakimiyyəti hərbi canilərdir, Xocalı soyqırımını törədənlərdir. Azərbaycan torpaqlarının işğalında dinc əhaliyə qarşı aparılan etnik təmizləmə siyasətində fəal iştirak edənlərdir. Onlardan bundan artığını gözləmək mümkün deyil. Ancaq o da həqiqətdir ki, bu gün Ermənistanda hökm sürən xunta və diktatura rejimi Ermənistan xalqı üçün də təhlükəyə çevrilib. Ermənistan xalqı da artıq buna dözə bilmir, bu kriminal, korrupsioner rejimdən bezib. Ermənistandan köç gedir. Vəziyyət o həddə çatıb ki, onlar indi Azərbaycana pənah gətirirlər, Azərbaycana gəlirlər. Görün bu rejim nə dərəcədə azğınlaşıb, əhaliyə qarşı nə qədər çirkin əməllər görür ki, hətta bu gün Azərbaycana Ermənistandan insanlar köçür və burada rahat yaşayır. Çünki Azərbaycanda nəinki milli, dini zəmində heç bir qarşıdurma, heç bir anlaşılmazlıq da ola bilməz”.

- Azərbaycan bu gün güclü ölkədir, iqtisadi və siyasi sahədə böyük uğurlara imza atıbdır, - deyə dövlət başçısı ölkəmizin inkişafında daimi sabitliyin mühüm amil olduğunu qeyd etdi. - Regional təhlükəsizlik məsələlərində Azərbaycan çox müsbət rol oynayır. Azərbaycan sabitləşdirici amildir. Bizim iştirakımız, razılığımız olmadan bölgədə heç bir layihə icra edilə bilməz. İqtisadi və hərbi potensialımız bizim gücümüzü daha da artırır və biz bu gün təmas xəttində vəziyyətə nəzarət edirik. Getdikcə bizim gücümüz artacaq, Ermənistan daha da zəifləyəcək. Çünki inkişaf üçün Ermənistanda heç bir imkan yoxdur. Heç bir obyektiv amil yoxdur ki, Ermənistan bu diktatura rejimi altında inkişaf etsin.

Biz isə öz yolumuzla gedəcəyik. Biz ilin sonuna qədər bütün vəzifələri icra edəcəyik. Gələn ili də əminəm ki, uğurla başa vuracağıq.

**AZƏRTAC-ın materialları əsasında**

## Misir Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həllini dəstəkləyir

***Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Misirin ölkəmizdə yeni təyin olunmuş səfiri xanım Suzan Mouh Cəmil ilə görüşüb.***

Səfir Suzan Mouh Cəmil etimadnaməsinin surətini nazir Elmar Məmmədyarova təqdim edib.

Görüşdə Azərbaycan ilə Misir arasında tarixi və ənənəvi dostluq əlaqələrinin olduğu qeyd edilib, birgə səylərlə iqtisadiyyat, elm, təhsil, enerji, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulanıb. Hökumətlərarası birgə əməkdaşlıq komissiyasının fəaliyyətinin və iki ölkə arasında birbaşa hava uçuşlarının ikitərəfli iqtisadi-ticarət və turizm əlaqələrinin inkişafına mühüm töhfə verəcəyi vurğulanıb.

Söhbət zamanı beynəlxalq təşkilatlar çərçivəsində iki ölkə arasında qarşılıqlı dəstəyin və əlaqələndirmənin vacibliyi ifadə olunub, bu xüsusda BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər təsisatlar qeyd olunub.

E.Məmmədyarov Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə danışıqlar prosesi haqqında məlumat verərək, BMT Təhlükəsizlik Şurasının münaqişə ilə əlaqədar qəbul etdiyi dörd qətnamənin tələblərinin Ermənistan tərəfindən hələ də yerinə yetirilmədiyini diqqətə çatdırıb. Beynəlxalq hüquq və BMT Nizamnaməsinə əsasən kimin təcavüzkar, kimin isə təcavüz və işğala məruz qalan ölkə olmasının aydın şəkildə müəyyən olunduğunu deyən nazir münaqişə ilə əlaqədar beynəlxalq ictimaiyyətin mövqeyinin də birmənalı xarakter daşımalı olduğunu vurğulayıb. Azərbaycanın hər bir halda beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyinin təmin olunacağını qeyd edən nazir ölkəmizin BMT nizamnaməsinin 51-ci maddəsində nəzərdə tutulmuş hüququndan da istifadə etmək iqtidarında olduğunu nəzərə çatdırıb. O, münaqişənin həlli ilə əlaqədar Azərbaycanın qəti mövqeyinin BMT Baş Məclisinin 70-ci sessiyasının ümumi müzakirələr hissəsində beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıldığını deyib.

Görüş zamanı səfir ölkəmizdə keçirilmiş Birinci Avropa Oyunlarının möhtəşəm təşkil edilməsi münasibətilə Azərbaycan xalqını təbrik edib. Diplomatik fəaliyyəti müddətində tarixi dostluq əlaqələri ilə bağlı olan Azərbaycan və Misir arasında siyasi, iqtisadi, ticarət, elm, təhsil və digər sahələrdə əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib.

Səfir Misirin beynəlxalq hüququn norma və prinsipləri, BMT Nizamnaməsi və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında Ermənistan-Azərbaycan münaqişəsinin danışıqlar yolu ilə həllini dəstəklədiyini diqqətə çatdırıb.

Görüşdə Yaxın Şərq və Şimali Afrika regionunda cərəyan edən proseslər barədə də fikir mübadiləsi aparılıb.

Nazir Elmar Məmmədyarov səfir Suzan Mouh Cəmilə diplomatik fəaliyyətində uğurlar diləyib.

**AZƏRTAC**

## General-polkovnik Zakir HƏSƏNOV:

# Biz Ali Baş Komandanın orduya göstərdiyi diqqət və qayğının növbəti bariz nümunəsini görürük

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, yeni hərbi hissədə tikilən obyektlərin açılışı olub.***





Əvvəlcə hərbi hissənin ərazisində ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub.

Müdafiə Nazirliyinin rəhbərliyi yeni inşa edilən qərargah, əsgər yataqxanaları, təbliğat materialları ilə tam təmin olunmuş ideoloji, xidməti, tədris və istirahət otaqları, brifinq zalı, interaktiv tir, döyüş texnikası üçün saxlanclar, sıra meydanı, yeməkxana, tibb məntəqəsi, hamam-camaşırxana, qazanxana kompleksi və digər obyektlərlə tanış olub.







Müdafiə naziri general-polkovnik Zakir Həsənov şəxsi heyət qarşısında çıxış edərək Ali Baş Komandanın ordu quruculuğuna göstərdiyi yüksək diqqətin nəticəsində son vaxtlar döyüş və mənəvi-psixoloji hazırlığın daha da gücləndirilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması və maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində görülən işləri diqqətə çatdırıb.

Müdafiə naziri bildirib: "Bu gün yeni hərbi şəhərciyin açılışında iştirak edirik. Biz Ali Baş Komandanın orduya göstərdiyi diqqət və qayğının növbəti bariz nümunəsini görürük. Müasir, yeni tələblərə cavab verən qərargah, əsgər yataqxanaları, yeməkxana, digər xidməti və inzibati binalar sizin istifadənizə verilib.

Silahlı Qüvvələrdə tikinti işləri sürətlə və durmadan davam edir. İlin sonunadək birliklərdə, hərbi hissələrdə yeni tam təmin olunmuş 10-dək hərbi şəhərciyin inşasını yekunlaşdıracağıq. Bu, bir daha sübut edir ki, Ali Baş Komandan hərbi hissələrin, ordunun hətta hər bir kiçik problemi ilə yaxından maraqlanır, qayğısına qalır və bütün həyata keçirilən fəaliyyətləri nəzarətdə saxlayır.

Eyni zamanda, Silahlı Qüvvələrin istifadəsinə ən müasir döyüş texnikası, silah-sursat və yeni avadanlıqlar verilir. Sizin hərbi hissə də ən müasir zirehli döyüş texnikası ilə silahlanıb. Bir qədər əvvəl hərbi hissənin döyüş texnikasının yerləşdiyi saxlanclara baxdıq, aparılan işlərlə maraqlandıq və görülən tədbirlərin yüksək səviyyədə olduğunun şahidi olduq.

Möhtərəm Prezidentimiz Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Silahlı Qüvvələrin xidməti döyüş fəaliyyətinə yüksək qiymət verib. Bu bizi yeni uğurlara sövq edir. Möhtərəm Prezidentimiz qeyd edib ki, təmas xəttində Silahlı Qüvvələrimiz tam üstünlüyü əldə edib. Düşmənə sarsıdıcı zərbələr vurulub və nə qədər ki, bizim torpaqlarımızdadırlar, itkilər verəcəklər.

Biz hər birimiz xidmət yerimizdə çalışmaqla qələbəmizi yaxınlaşdırırıq. Məqsədimiz birdir: qısa müddətə torpaqlarımız işğaldan azad olunmalıdır. Bunu Silahlı Qüvvələrdən xalqımız və Ali Baş Komandan tələb edir. Bu vəzifəni yerinə yetirmək üçün bütün Silahlı Qüvvələr yüksək səviyyədə çalışaraq buna nail olmalıdır. Bir daha Ali Baş Komandanı və xalqımızı əmin etmək istəyirəm ki, Silahlı Qüvvələr qarşıda duran müqəddəs vəzifəni qısa müddətdə və uğurla yerinə yetirməyə hazırdır".





Sonra çıxış edən birlik komandiri göstərilən diqqət və qayğıya görə Ali Baş Komandana və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

Şəxsi heyət təntənəli marşla tribunanın önündən keçdikdən sonra Müdafiə Nazirliyinin rəhbərliyi hərbi qulluqçularla birlikdə nahar edib.

Sonra Müdafiə naziri hərbi hissədə işlə təmin olunmuş mülki qulluqçularla söhbət edib, müvafiq göstəriş və tövsiyələrini verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Bakıda NATO-nun ekspert qrupu tərəfindən “Standartlaşdırma və uzlaşma” seminarı keçirilir

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə əsasən, oktyabrın 13-dən Bakı şəhərində NATO-nun Standartlaşdırma ofisinin ekspert qrupu tərəfindən "Standartlaşdırma və uzlaşma" seminarı keçirilir.***



İkigünlük seminar çərçivəsində NATO-nun Standartlaşdırma ofisinin direktoru general-mayor Edvadas Majeikasın (Litva Respublikası) rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikası Silahlı Qüvvələrində aparılan standartlaşdırma fəaliyyəti ilə tanış olacaq, NATO-da həyata keçirilən standartlaşdırma və uzlaşma siyasəti barədə məlumat verəcək, o cümlədən mövcud əməkdaşlığın genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılacaq.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Hərbçilərin VI dünya idman oyunlarında uğurla çıxış edən Azərbaycan milli komandasının üzvləri Vətənə qayıdıblar

***Koreya Respublikasında təşkil olunan hərbçilərin VI dünya idman oyunlarında uğurla çıxış edən Azərbaycan milli komandasının üzvləri oktyabrın 13-də Vətənə qayıdıblar.***




Heydər Əliyev Beynəlxalq Aeroportunda idmançılarımızı müdafiə, gənclər və idman nazirliklərinin, federasiyaların nümayəndələri və jurnalistlər qarşılayıblar.

Hərbçilərin VI dünya idman oyunlarında Azərbaycan təmsilçiləri idmanın üç növü - cüdo, taekvondo və güləş üzrə yarışlarda 12 medal qazanıblar. Azərbaycan millisi ümumi komanda hesabında 15-ci pillədə qərarlaşıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Oktyabrın 9-da axşam saatlarında qoşunların təmas xəttində düşmənlə döyüş toqquşması zamanı Silahlı Qüvvələrimizin bölmələrinin qarşı tərəfə vurduğu zərbələr nəticəsində düşmənin 6 nəfərədək hərbi qulluqçusu məhv edilib, çoxlu sayda yaralısı var.

Ordumuzun bir hərbi qulluqçusu yaralanıb.

Silahlı Qüvvələrimizin bölmələri bütün cəbhəboyu əməliyyat şəraitinə tam nəzarət edir.

* * *

Oktyabrın 12-dən 17-dək Buxarest şəhərində (Rumıniya) münaqişəsonrası yenidənqurma və sabitləşmə kursu, oktyabrın 12-dən 22-dək Budapeşt şəhərində (Macarıstan) müəllimlər üçün təkmilləşdirilmiş hərbi terminologiya kursu keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edəcəklər.

* * *

***11 oktyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlardan və qumbaraatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 58 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Göyarx, Ağdam rayonunun Sarıcalı, Kəngərli, Şıxlar, Novruzlu, Şuraabad, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 61 dəfə atəş zərbəsi endirib.

* * *

***12 oktyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 82 millimetrlik minaatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 42 dəfə pozub.

Erməni silahlı bölmələri İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində yerləşən mövqelərimizi atəşə tutub.

Tərtər rayonunun Çiləbürt, Qızıloba, Ağdam rayonunun Sarıcalı, Kəngərli, Şıxlar, Novruzlu, Şuraabad, Cəvahirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 48 dəfə atəş zərbəsi endirib.

* * *

***13 oktyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 92 dəfə pozub.

Ermənistan Respublikasının Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Qızıloba, Göyarx, Ağdam rayonunun Sarıcalı, Kəngərli, Şıxlar, Novruzlu, Şuraabad, Cəvahirli, Mərzili, Qaraqaşlı, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Qorqan, Qaraxanbəyli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 92 dəfə atəş zərbəsi endirib.

# Şəhidin medalı ailəsinə təqdim edilib

***Ötən il şəhid olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Əhmədov Tural Məhərrəm oğlunun Ağdam rayonunda il mərasimi keçirilib.***



Mərasimdə çıxış edən Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani Müdafiə nazirinin başsağlığını şəhidin ailəsinə çatdırıb. O, Azərbaycan Respublikasının Prezidenti adından Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə şəhidin ölümündən sonra təltif olunduğu "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalını T.Əhmədovun adını daşıyan yeddi aylıq oğlu Turalın yaxasına sancıb.

Ağdam rayon icra başçısının müavini, Qarabağ müharibəsi iştirakçısı Arzu xanım Rəhimova çıxışında qeyd edib ki, rayon 2000-ə yaxın şəhid verib, 17 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb, neçə-neçə ağdamlı müstəqil respublikanın orden və medalları ilə təltif olunub. Hazırda rayonda 1000-ə yaxın Qarabağ qazisi yaşayır. Ağdamlılar hər an Qarabağ uğrunda Ali Baş Komandanın əmrini yerinə yetirməyə hazırdır.

Ağdam rayonu Qiyaslı kənd inzibati-ərazi dairəsi üzrə nümayəndə, zabit atası Sərxan Rüstəmov öz çıxışında bildirib ki, təkcə bizim kəndimiz 63 şəhid verib. Bu gün məcburi köçkün şəhərciyində məskunlaşmağımıza baxmayaraq doğma yurd yerlərimizə qayıdacağımız günü səbirsizliklə gözləyirik və Ali Baş Komandanın hər bir əmrinə hər an hazırıq.

Silahdaşları adından çıxış edən zabitlər Elşən Əliquliyev və Səməd Məmmədov Tural Əhmədovun sağlığında hərbçi kimi düşmənə xeyli itki verdiyini vurğulayaraq onun şəxsi rəşadət və şücaət nümunələrindən danışıblar.

Şəhidin anası Kifayət Ələkbər qızı göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə ailə adından dərin minnətdarlığını bildirib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

*General Səməd bəy Mehmandarov - 160*

# Cümhuriyyət ordusunun qurucusu



***Azərbaycanın sərkərdə oğulları heç zaman unudulmur, həyat və döyüş yolları gələcək nəsillərə təbliğ edilir. Keçən il ölkə Prezidenti İlham Əliyevin generallar Əlağa Şıxlinskinin 150, Cəmşid Naxçıvanskinin 120 və bu günlərdə tam artilleriya generalı Səməd bəy Mehmandarovun 160 illik yubileylərinin keçirilməsi barədə imzaladığı sərəncamlar dövlətimizdə hərb tarixinə verilən diqqətin bariz nümunəsidir.***

Azərbaycan Xalq Cümhuriyyəti ordusunun qurucularından sayılan S.Mehmandarov hər şeydən öncə, hərbi quruculuq prosesinin mahiyyətini, onun dövlət siyasətində yerini müəyyənləşdirməyi və bütün imkanları da bu məsələlərin həllinə doğru istiqamətləndirməyi bacarmışdı. O, yüksək kürsülərdən dəfələrlə bəyan edirdi ki, Cümhuriyyət ordusu siyasətdən kənarda qalmalı, yalnız Azərbaycanın müstəqilliyinin keşiyində dayanmalıdır. Hərbi nazir olduğu müddətdə bu prinsipə dönmədən riayət edən S.Mehmandarovun mövqeyi hakimiyyətdə təmsil olunan siyasi qüvvələr tərəfindən də alqışlanır və hökumətdə hərbi nazir postu yalnız ona tapşırılır. Beləliklə, 1918-ci il noyabrın 1-də hökumət hərbi nazirliyi bərpa etmək barədə qərar qəbul edərkən tam artilleriya generalı yenidən hərbi xidmətə çağırılır. O, hərbi nazirin müavini təyin edilərək, həm nazirliyin, həm də ordunun formalaşdırılması məsələlərinə rəhbərlik edir. Görkəmli sərkərdənin peşəkarlığı, təşkilatçılıq qabiliyyəti, başlıcası isə Azərbaycan xalqına və dövlətinə sədaqəti tez bir zamanda öz təsdiqini tapır və 1918-ci il dekabrın 25-də o, hərbi nazir vəzifəsinə irəli çəkilir. 1918-ci ilin sonlarında müttəfiq dövlətlər adından Bakıya daxil olan ingilis qoşunlarının komandanlığı Azərbaycan hökuməti qarşısına hərbi qüvvələrin, o cümlədən hərbi nazirliyin Bakıdan çıxarılması tələbini qoyur. Bununla əlaqədar nazirlik Gəncəyə köçürülür. 1919-cu ilin ortalarınadək hərbi nazirlik fəaliyyətini orada davam etdirmək məcburiyyətində qalır. Paytaxtdan ayrı düşmək qarşıda dayanan mürəkkəb vəzifələrin həllinin operativliyinə təsir göstərsə də, S.Mehmandarovun işgüzarlığı, ətrafına topladığı zabitlərin iş keyfiyyətlərindən məqsədyönlü istifadə etməsi mövcud çətinliklərin həllində dönüş yaradır. Kadrlarla işlərin düzgün qurulması onun hərbi nazir kimi uğurlu fəaliyyətini şərtləndirən başlıca amillərdən biri idi. Böyük etimad, yüksək tələbkarlıq və daimi qayğı Əlağa Şıxlinski, Məmməd bəy Sulkeviç, Həbib bəy Səlimov, İbrahim ağa Usubov, İbrahim bəy Vəkilov, Cavad bəy Şıxlinski, Əbdülhəmid bəy Qaytabaşı, Teymur bəy Novruzov kimi onlarca digər generalın, yüksək rütbəli milli zabitlərin təşəbbüskar fəaliyyətinə geniş meydan açdı. Zabit kadrlarının milli zəmin üzərində təkmilləşdirilməsinə önəm verən sərkərdənin təşəbbüsü ilə Gəncə hərbi məktəbinin bazasında əvvəlcə praporşiklər məktəbi, sonra isə Hərbiyyə məktəbi açılır. Eyni zamanda İstehkamçılar məktəbi, Hərbi dəmiryolçular məktəbi, Şuşa hərbi-feldşer məktəbi fəaliyyətə başlayır. Qısa müddət ərzində Azərbaycan Ordusunda iki piyada, bir süvari diviziyası, Gəncədə iki artilleriya batareyası və yüngül toplara malik xüsusi diviziya yaradılır. Ordunun tərkibində 3 zirehli qatar, 4 hərbi təyyarə, 6 zirehli avtomobil və s. var idi. Şəxsi heyətin sayının 40 min nəfərə çatdırılması və texnika təchizatını gücləndirmək məqsədilə 5 tank, 12 hidroplan, 6 aeroplan, 9 zirehli avtomobil alınması planlaşdırıldı. Artıq Gəncədə bir hərbi zavod işləməyə başlamışdı. Azərbaycanın Avropa ölkələrindən silah alması müşkül idi. Antanta ölkələri Azərbaycanın Osmanlı Türkiyəsi ilə əlaqələrinə qısqanclıq göstərirdi. Çatışmazlıqlara baxmayaraq, ordu xeyli möhkəmlənmiş, yüksək intizamlı ordu yaradılmışdı. 1919-cu ilin sentyabrında Bakıda olmuş ingilis hərbi müxbiri Skotland Liddel öz təəssüratlarında yazırdı: "Mənə deyirdilər ki, burada qarışıqlıqla qarşılaşacağam, amma heç bir qarışıqlıq görmədim... Yolboyu biz Azərbaycan Ordusunun yüzlərlə cavan əsgəri ilə qarşılaşdıq, onlar iki il əvvəl gördüyüm əsgərlər deyildilər. Hətta bir ay əvvəlkilərə belə oxşamırdılar. Azərbaycan Ordusu sürətlə təşkil olundu, sürətlə də lazımi şəklə düşdü. Azərbaycan dərk etdi ki, intizamsız ordu sadəcə yaşaya bilməz. Azərbaycanda dəmir intizam hökm sürür, elə bir intizam ki, Rusiyada belə yoxdur".

Aprel işğalından sonra Moskvaya Daimi Artilleriya komissiyasının üzvü kimi səhra qərargahına göndərilən S.Mehmandarovun öz əli ilə yazdığı qeydləri bu günümüzə gəlib çatan dəyərli faktlardır. "Cümhuriyyət hökuməti əsgəri işlərə əhəmiyyət vermişdir. Hərbiyə nəzarətə general Səməd bəy Mehmandarov təyin olunmuşdu. Onun müavini rus artilleriyasının "Allahı" general-leytenant Əlağa Şıxlinski, baş qərargah rəisi isə general-leytenant Süleyman bəy Sulkeviç idi. 24 min süngü, 6 min piyada, süvari topçu və digər siniflərdən ibarət hər cür silahla yaraqlanmış bir ordu qurulmuş və Xəzər dənizində kiçik bir flot hazırlanmışdır. Düşmən qüvvələr itaət və nizam altına alınmışdır".

Ordu quruculuğunun milli zəmində qurulması S.Mehmandarovun hərbi nazir kimi önəm verdiyi əsas xətt idi. Mövcud tarixi şəraitdə ölkədə türk və rus hərbi təcrübələrinin təsirli olmasına baxmayaraq onların mütərəqqi formalarından məhz milli zəmin əsasında istifadəyə üstünlük verilirdi. Əsgər və zabiti xalqına daha da yaxınlaşdıran, Vətəninə daha dərindən bağlayan dəyərləri əsas götürən S.Mehmandarov orduda rəsmi dilin Azərbaycan dili olduğunu elan edir. O, azərbaycanlı döyüşçülərin müqəddəs kitabımız Qurani-Kərimin altından keçməklə, Vətənə sədaqət andı içmələrini zəruri sayır, marşların ana dilində oxunmasını tələb edir, milli rəmzləri özündə əks etdirən döyüş bayraqlarının və geyim formalarının layihələrini təsdiqləyir. Xalqımızın zəngin hərb tarixinin öyrənilməsinə və hərbi qulluqçular arasında təbliğinə, hətta əsgərlərin qidalanmasında milli xörəklərin üstünlük təşkil etməsinə göstəriş verir.

Yeni yaranan hərbi hissələrdə aşkara çıxan fərarilik, çağırış və səfərbərlik üzrə işlərin düzgün aparılmaması hallarını aradan qaldırmaq, əhalidə orduya inam yaratmaq üçün hərbi nazir general S.Mehmandarovun xalqa müraciəti olur. Onun 1919-cu il fevralın 25-də parlamentdə proqram xarakterli çıxışında, əmr və yazışmalarında imkanlı şəxslərin övladlarının hərbi xidmətdən yayındırılması sərt tənqid edilirdi. Əhalinin hərbi xidmət yaşı çatmış bütün kateqoriyalarının orduya cəlb edilməsinə görə çağırış və səfərbərlik işinin yeni sistemi tətbiq olunur. Fərarilik və xidmətdən yayınmanın əsas səbəblərinin aradan qaldırılması istiqamətində ciddi addımlar atılır. Mövcud tarixi şəraitdə - Denikin qoşunlarının hücum təhlükəsinin qarşısını almaq məqsədilə Bakı ətrafında və şimal sərhədi boyunca güclü müdafiə sisteminin yaradılması, Lənkəran bölgəsindəki separatçılığın aradan qaldırılması məqsədilə döyüş tapşırığının icrası, 1920-ci il martın sonlarında Qarabağa erməni təcavüzünün qətiyyətlə dəf olunması və s. general S.Mehmandarovun Vətən qarşısında xidmətlərinin ən yüksək göstəriciləri idi. Qarabağ və Qazax-Tovuz bölgələrində genişlənən erməni daşnak qüvvələrinin hücumlarının qarşısının alınması və qısa vaxtda ölkənin hərbi potensialının formalaşdırılması kimi vəzifələrin öhdəsindən bacarıqla gəlmiş general Mehmandarov xalqımızın sərkərdəlik tarixinə şanlı səhifələr yazıb.

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

***Bu günlərdə Azərbaycan Hərbi Tarixi Muzeyində müstəqil Azərbaycanın ən yeni hərb tarixində baş vermiş döyüşlər zamanı göstərilən şücaət və qəhrəmanlıqların təbliği mövzusunda keçirilən tədbirə toplaşanlar öncə Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib. Sonra Şəhidlər Xiyabanında Vətənimizin müstəqilliyi və azadlığı uğrunda canlarını fəda etmiş oğul və qızlarımızın xatirəsi yad olunub.***

Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun, Veteranlar Şurasının və Hərb Tarixi Muzeyinin dəstəyi ilə baş tutan mərasim muzeyin akt zalında davam etdi.

# Hərb Tarixi Muzeyində tədbir



Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə xalqımızın ikinci dəfə tarixi müstəqilliyinin ilk dövründə ermənilərin Dağlıq Qarabağı zorla Ermənistana birləşdirmək iddiasına düşdüyünü xatırladaraq bildirdi ki, həmin vaxt Azərbaycan Ordusu yenicə yaranmaqda idi. Müdafiə Nazirliyinin ilk hərbi hissəsi erməni quldurlarına qarşı döyüşərək yaradılıb. Laçında, Şuşada, Qubadlıda, Zəngilanda, Kəlbəcərdə, Ağdərədə və başqa ərazilərdə döyüşlərdə bu hərbi hissənin kollektivi düşməni ağır itkilərə düçar edib. Natiq qeyd etdi ki, 1993-cü ilin mart-aprel aylarında hərbi əməliyyatlar zamanı Kəlbəcər rayonunun 60 min dinc sakininin soyqırımdan xilas edilməsində əməyi olan bir qrup müharibə veteranı burada iştirak edir.

Daha sonra aparıcılar Nuranə Nəcəfova və Şəbnəm Səmədova ehtiyatda və istefada olan zabitləri, veteranları mərasim iştirakçılarına təqdim etdi. Mərasimdə çıxış edən Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin nümayəndəsi polkovnik-leytenant Rövşən Qarayev Qarabağ müharibəsindən geniş bəhs edərək Azərbaycan Ordusunun ulu öndərimiz Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra formalaşdığını və hazırkı dövrdə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində böyük inkişaf uğurları qazandığını vurğuladı.

Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin şöbə rəisi ədliyyə polkovniki Mehman Sadıqov ilk hərbi hissənin döyüşçüsü, Azərbaycanın Milli Qəhrəmanı, ədliyyə general-leytenantı Mədət Quliyevin təbrikini keçmiş silahdaşlarına çatdırdı.

Azərbaycan Hərb Tarixi Muzeyinin əməkdaşı Türkan Novruzova, bölmə müdiri Vaqif Seyidbəyov, ehtiyatda olan zabitlər Habil Şirinov, Həsən Əmirov, Selcan Qarayev, Valeh Rəfiyev, İntiqam Mirzəyev, Taekvondo üzrə dünya çempionu, Olimpiya oyunlarının gümüş mükafatçısı Fəridə Əzizova və başqaları Qarabağ müharibəsi zamanı aparılan döyüş əməliyyatları, onların nəticələri, oğul və qızlarımızın göstərdikləri qəhrəmanlıqlar, yetişməkdə olan gənc nəsildə vətənpərvərlik ruhunun yüksəldilməsi istiqamətində görülən tədbirlər barədə ətraflı danışdılar.

"N" hərbi hissəsinin döyüş yolunu əks etdirən "Əsrin qəhrəmanlığı" adlı qısametrajlı sənədli filmin nümayişi ilə tədbirə yekun vuruldu.

**Mayor
Bəxtiyar ƏLİYEV,
"Azərbaycan Ordusu",
foto
kiçik çavuş
N.PƏNAHOVUNDUR**

*Nümunəvi xidmət*

# "Dağların zirvəsində torpaqlarımızı qoruyuram"



Hər dəfə ezamiyyətimizdə Vətənin keşiyində mərdlik nümayiş etdirən, yurdumuz üçün canından, qanından keçməyə hazır olan hərbi qulluqçularımızla görüşürük. Bu dəfəki səfərimizdə isə cəbhə xəttində uğurlu xidmət həyata keçirən kiçik çavuş Aqil Haqverdiyevi tanıyırıq.

- Daşkəsən rayonundan hərbi xidmətə çağırılmışam. Əsgərlik müddətində komandirlərimin öyrətdiklərini yaxşı mənimsəyib, hərbi biliklərə yiyələnmişdim. Sonra həyatımı ordu ilə bağlamaq, Vətən keşiyində duranların sırasında olmaq qərarına gəldim. Nəhayət, 2014-cü ildə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi yenidən xidmətə başladım. Gördüyünüz kimi ətəyində doğulduğum dağların zirvəsində torpaqlarımızı qoruyuram. Manqa komandiriyəm. Vəzifəmin öhdəsindən layiqincə gəlməyə çalışıram. Müvafiq təlimi uğurla başa vurduqdan sonra bu vəzifəyə təyin olunmuşam. Tabeliyimdə olan şəxsi heyətin təlim-tərbiyəsinə, hərbi intizamına və mənəvi-psixoloji, sıra hazırlığına, zahiri görkəminin səliqəsinə, həmçinin, silahlardan, döyüş texnikasından düzgün istifadə etməsinə, ən başlıcası isə manqanın döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirməsinə ciddi nəzarət etməyə çalışıram. Bilmədiklərimi komandirlərdən öyrənir, şəxsi heyəti təcrübəli döyüşçü kimi yetişdirməyə çalışıram. Hazırlıqlı döyüşçü müharibə zamanı qələbənin yardımçısıdır. Hər birimizin bir amalı, bir məqsədi var: Ali Baş Komandanın əmri ilə tarixi Azərbaycan torpaqlarını düşməndən azad etmək, - deyə Aqil Haqverdiyev söhbətimizdə dedi.

Manqa komandiri döyüş tapşırığı yerinə yetirilərkən əsgərlərinə komanda verməyi bacarmalıdır. Həmçinin, tabeliyində olanların hər birinin ad və soyadını, təvəllüdünü, şəxsi keyfiyyətlərini, hərbi xidmətə qədərki məşğuliyyət növünü, ailə vəziyyətini, döyüş və ictimai-siyasi hazırlığını və çatışmazlıqlarını bilməlidir.

Kiçik çavuş A.Haqverdiyev manqasında olan əsgərlərə qarşı ədalətli komandir olduğunu artıq təsdiqləyə bilib.

- Şübhəsiz, ön xətdə çətin və ekstremal şəraitdə Vətənə övlad borcunu yerinə yetirən əsgərin vətənpərvər döyüşçü kimi formalaşmasının əsas məsuliyyəti biz komandirlərin üzərinə düşür, - deyir manqa başçısı. - Günün istənilən vaxtında əsgərlərlə ünsiyyətdə olur, problemləri ilə maraqlanıram. Çalışıram ki, hər bir əsgər ürəyindəki arzusunu, sözünü və problemini məndən gizli saxlamasın. Hansı əsgərimizin ailəsində, səhhətində problem yaranırsa, ona diqqətlə yanaşırıq. Bu zaman əsgərlər də bizim qayğı və diqqətimizi görür, xidmətlərində uğurlar qazanmağa, nizam-intizamlı olmağa ruhlanırlar.

**Leytenant
Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

### Kabildə Britaniya hərbi konvoyuna hücum edilib



Əfqanıstanın paytaxtı Kabil şəhərində patrul xidməti zamanı Britaniya hərbi konvoyuna hücum edilib.

Bu gün səhər saatlarında yaşayış sahəsində baş verən hücumda 7 nəfər yaralanıb.

Britaniya Müdafiə Nazirliyindən hadisənin Talibanın Kunduz şəhərindəki hava hücumları ilə əlaqədar olduğu bildirilib.

### Belarus MSK: Prezident Aleksandr Lukaşenkonun inauqurasiya mərasimi ən geci dekabrın 11-də keçiriləcək



Beşinci müddətə Belarus Prezidenti vəzifəsinə seçilmiş Aleksandr Lukaşenkonun inauqurasiya mərasimi ən geci dekabrın 11-də keçiriləcək. Belarus Mərkəzi Seçki Komissiyasının (MSK) rəhbəri Lidiya Yermoşina bunu oktyabrın 12-də Minskdə keçirilmiş mətbuat konfransında bəyan edib.

Yeni seçilmiş Prezidentin inauqurasiya mərasimi seçkilərin keçirildiyi gündən etibarən ən geci iki ay ərzində, yəni indiki halda dekabrın 11-dən gec olmayaraq keçirilməlidir. MSK rəhbəri onu da əlavə edib ki, gələcək inauqurasiya mərasimi ilə bağlı bütün təşkilati məsələlər Prezident Administrasiyasının təşkilat idarəsi tərəfindən həll ediləcək.

Belarus MSK-nın ilkin məlumatına görə, oktyabrın 11-də keçirilmiş dövlət başçısı seçkilərində ölkənin fəaliyyətdə olan Prezidenti Aleksandr Lukaşenko seçicilərin 83,49 faizinin səsini toplayıb.

### Ankarada törədilən terror nəticəsində ölənlərin sayı 95 nəfərə çatıb



Oktyabrın 10-da Ankaradakı dəmiryol stansiyası yaxınlığındakı yol qovşağının altında törədilmiş partlayışda həlak olanların sayı 95 nəfərə çatıb.

Anadolu Agentliyinin məlumatına görə, terror nəticəsində xəsarət alanlardan 48 nəfəri ağır olmaqla 246 nəfər müxtəlif xəstəxanalarda müalicə olunmaqdadır. Bildirilir ki, həlak olanlardan 52 nəfərin şəxsiyyəti müəyyənləşib.

### İŞİD lideri Bağdadi ölümcül yaralanıb



Terror təşkilatı İŞİD-in lideri Əbu Bəkr əl-Bağdadi hava zərbəsi nəticəsində ağır yaralanıb.

Ənbarda İŞİD-ə qarşı döyüşən Sünni Şahvan Güclərinin komandiri Aşur əl-Mıhelavinin sözlərinə görə, Ənbarın Karabilə bölgəsində İŞİD liderinin avtomobil karvanına edilən hava hücumu nəticəsində Bağdadinin ağır yaralanması ilə bağlı kəşfiyyat məlumatları əldə olunub.

İraqın əl-Qaim qəsəbəsi və Suriyanın Əlbukəmal şəhərində olan kəşfiyyat qurumlarından verilən məlumatlara görə, Bağdadi hadisə yerindən təcili yardımla Suriyadakı bir xəstəxanaya aparılıb. Aşur əl-Mıhelavi deyib ki, Bağdadi İraq sərhədinə çox yaxın, İŞİD-in nəzarətində olan Əlbukəmal şəhərindəki bir xəstəxanada yüksək təhlükəsizlik tədbirləri altında müalicə olunur: "Biz Bağdadinin ölümcül yaralandığı qənaətindəyik".

### Almaniyanın 3384 ton qızıl ehtiyatı var



Federal bank Almaniyanın qızıl ehtiyatı haqda ilk dəfə təfərrüatlı məlumat yayıb.

Almaniya qızıl ehtiyatının həcminə görə ABŞ-dan sonra dünyada ikinci yeri tutur. Federal bankın fondunda 3384 ton qızıl ehtiyatı var. 2014-ci ilin sonunda qızıl külçələrin dəyəri 107 milyard avro təşkil edib ki, bu da ümumi valyuta ehtiyatının üçdə ikisi deməkdir.

Ən maraqlısı odur ki, qızıl ehtiyatının yalnız 35 faizi Almaniya ərazisində - Frankfurt şəhərində saxlanılır. Qalan 43 faizi Nyu-Yorkda, 13 faizi Londonda, 9 faizi isə Paris anbarlarında qorunur. Plana görə, 2020-ci ilədək qızıl ehtiyatının ölkə xaricindən Frankfurta gətirilməsi nəzərdə tutulur.

### Qəzza sektorunda baş verən toqquşmada 8 fələstinli həlak olub



Qəzza sektorunda İsrail hərbçiləri ilə fələstinli nümayişçilər arasında baş verən toqquşmada 8 nəfər həlak olub, 50 nəfər isə yaralanıb.

Toqquşma İordan çayının qərb sahilində fələstinlilərlə həmrəylik məqsədi ilə keçirilən nümayişdə baş verib.

İsrail ordusunun iddiasına görə, nümayişçilər əsgərlərə daş və yandırıcı maddə dolu şüşələr atmağa başlayıb və hərbçilər onlara atəş açmağa və gözyaşardıcı qazdan istifadə etməyə məcbur olub.

İordan çayının qərb sahilində vəziyyət son günlər xeyli kəskinləşib. Oktyabrın əvvəlindən başlayaraq İsrail hərbçiləri ilə toqquşmalarda yüzlərlə fələstinli yaralanıb, bir neçə nəfər isə həyatını itirib.

### İspaniyanın milli bayramı münasibətilə Madriddə hərbi parad keçirilib



Oktyabrın 12-də İspaniyanın milli bayramı münasibətilə bu ölkənin paytaxtında müxtəlif qoşun növlərini təmsil edən 3500 hərbçinin və aviasiyanın iştirakı ilə parad keçirilib. Paradda İspaniyanın Kral VI Felipe də iştirak edib.

Bask və Kataloniya vilayətlərinin rəhbərləri paradda olmasalar da, demək olar ki, digər bütün vilayətlərin rəhbərləri və hökumət tam tərkibdə bu rəsmi tədbirdə iştirak edib. Ümumilikdə 100 minə yaxın insanın izlədiyi parad "Hamının günü" şüarı altında keçirilib.

Paraddan sonra İspaniya Kralının sarayında təqribən 2000 qonağın iştirakı ilə ənənəvi ziyafət təşkil olunub.

**AZƏRTAC-ın
materialları əsasında**

**Vətənsevərlik, torpaqsevərlik duyğularının tərənnümü deyəndə çağdaş Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, xalq şairi, milli ədəbiyyatımızın zirvəsində şeir səltənəti yaradan Məmməd Araz da yada düşür. Ölməz sənətkarın şeir səltənəti daşlara, qayalara söykənilidi. Sözün poetik qüdrətini, fəlsəfi yükünü Vətənin daşından, qayasından qoparan şair nə yazırdısa, nədən yazırdısa, nota çevirdiyi misralarından ürəyinin həzin musiqisini bəstələyib ruhumuzu oxşadırdı...**



*Vətənpərvərlik*

# "Vətən mənə oğul desə..."

Vətən torpağının hər qarışı onun üçün müqəddəsiydi, əziziydi. Yurdumuzun dağı-aranı, Arazı-Kürü, gülü-çiçəyi, hətta çılpaq boz qayaları da. "İnsan qaya", "Qızıl qaya", "Ağlayan qayalar", "Məmməd Araz qayası" kimi silsilə şeirləri onun hədsiz Vətən sevgisindən mayalanırdı. Şeiriyyəti Vətən, torpaq anlayışının qabarıqlığı, mənə duyumunda sirli-sehrli açıqlamalarıyla, çözülən məcazi ifadələriylə zəngindir. Təkcə "Vətən mənə oğul desə, nə dərdim, mamır olub qayasında bitərdim" nigarançılığı bir şair ömrünü əhatələdi... Torpaq ətri çəkən şeirlərinin kökündə bərli-bəzəkli yurdunun gül-çiçəkləri və sərt qayaları dayanır. Vətənsevər şair gah yurd-yuva həsrətlərini ovundurur, gah da Tomrisi qeyrət rəmzi kimi canlandırır. Bəzən də Xətai qılıncı əlində Vətənin keşiyində görünür. Vətənin ağır günlərində səsi-soraqı tez-tez cəbhə bölgələrindən, səngərlərdən gələrdi. Burada əsgərlərlə görüşüb Vətənin ciddi tapşırığını çatdırardı:

*Babaların məzarını qoru, qardaş!*
*Ataların vüqarını qoru, qardaş!*
*Körpələrin yuxusunu qoru, qardaş!*
*"Vətən ölməz" duyğusunu qoru, qardaş!*
*"Hünər ölməz" nidasını qoru, qardaş!*

- deyən şair "Murova qar yağırdı" şeirində Azərbaycan əsgərinin ayıqsayıqlığını önə çəkir, sanki oxucunu özü ilə bərabər uca dağların zirvəsinə - soyuq səngərə aparır:

Nigaran anaların qəlbinə qar yağırdı...

*Bir azdan qar tutacaq*
*Keçidləri, yolları;*
*Bircə əsgər nəfəsi*
*Əridəcək o qarı...*

Öyüd-nəsihətlərində müdrikləşən, düşmənlə üzbəüz mövqelərdə mətinləşən şair yüksələn səsi ilə haray qoparır:

*Nə yatmısan, qoca vulkan, səninləyəm,*
*Ayağa dur, Azərbaycan, səninləyəm!*
*Səndən qeyri biz hər şeyi bölə billik*
*Səndən qeyri biz hamımız ölə billik!*

İnsanlarımızı Vətənin harayına səs verməyə çağırır, bu yolda əyilənə "Ölüm haqdı" deyimini dilə gətirir:

*Əbədi məzarımız*
*Bu torpaqdı, deyirik,*
*Vətən göyü dəyişməz*
*Göy bayraqdı deyirik.*
*Qılınc qap, Vətən oğlu,*
*Bizi Vətən çağırır.*

Məna tutumundakı, təsir gücündəki ağırlığıyla, məsuliyyətiylə oxucusunu daim düşüncələrə daldıran şair "İnsanlığım, daşlığıma söykən, qürrələn" istəyində qalır, məqsədindən dönmür və poetik nəticəsini belə bitirir:

"Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı".

"Vətənsiz insan köksüz budaqdır və kökü olmayan hər canlı məhvə məhkumdur" həqiqətini ömrü boyu həmvətənlərinə təlqin edən böyük şairimiz oxucusunu Vətənin əbədiyaşarlığına inandırmağı bacarırdı:

*Vətən nəğmələri olmasa bir an,*
*Könüldə gül açıb, yaz ola bilməz.*
*Nəğməsi olmayan, şeiri olmayan*
*Bir xalqın tarixi yazıla bilməz.*

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**



# "Bayrağımız - milli qürurumuzdur"

## Silahlı Qüvvələrin şəxsi heyəti arasında yazı müsabiqəsi

Silahlı Qüvvələrimizin şəxsi heyətinin mənəvi hazırlığı həmişə diqqət mərkəzindədir. Bu istiqamətdə müxtəlif mövzularda geniş miqyaslı tədbirlər həyata keçirilir ki, bunlar da hərbçilərin istər dünyaduyumunun formalaşmasında, istərsə də mənəvi aləminin zənginləşməsində müstəsna rol oynayır.

Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin Silahlı Qüvvələrin şəxsi heyəti arasında "Bayrağımız - milli qürurumuzdur" mövzusunda yazı müsabiqəsi elan etməsi də bunun təzahürüdür. Belə bir müsabiqənin keçirilməsi Silahlı Qüvvələr və qoşun növləri, Əlahiddə Ümumqoşun Ordu, birlik və birləşmələrdə mənəvi-psixoloji hazırlığın daha intensiv təşkilinin təmin edilməsində vasitə olacaqdır.

Müsabiqəyə təqdim edilən yazılara Şəxsi Heyət Baş İdarəsi rəisinin əmri ilə müəyyənləşdirilmiş komissiya tərəfindən baxılacaq, onların əhatəli, məzmunlu, bədii yazılar seçiləcək qaliblər müəyyənləşəcək.

Yazı müsabiqəsi noyabr ayının 9-da yekunlaşacaq.

Müsabiqədə fərqlənənlər həm Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsinə uyğun olaraq həvəsləndiriləcək, fərqlənən yazılar "Azərbaycan Ordusu" qəzetində dərc ediləcək, həm də qaliblər Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi tərəfindən mükafatlandırılacaq:

I yer - 200 manat; II yer - 150 manat; III yer - 100 manat.

**"Azərbaycan Ordusu"**

# Hərbçilərin VI dünya oyunlarında idmançılarımız daha bir qızıl və gümüş medal qazanıblar




Koreya Respublikasının Munqyeonq şəhərində hərbçilərin VI dünya idman oyunlarında Azərbaycanı Mərkəzi Ordu İdman Klubunun komandası təmsil edir.

Taekvondo üzrə yarışda 87 kiloqramdan yuxarı çəki dərəcəsində mübarizə aparan Radik İsayev fəxri kürsünün üçüncü pilləsində qərarlaşıb. Birinci Avropa Oyunlarının çempionu əvvəlcə Ruy Yanqı (Çin), ardınca Ruslan Japarovu (Qazaxıstan) məğlub etsə də, yarımfinalda almaniyalı Volker Vodzixe 3:5 hesabı ilə uduzub. Lakin bürünc medal uğrunda görüşdə rusiyalı Yuri Kiriçenkoya qalib gələn dünya çempionumuz mükafatçılar sırasında yer alıb.

Taekvondo üzrə digər yarışa səkkizdəbir final mərhələsindən mübarizəyə qoşulan Ayxan Tağızadə (68 kq) əvvəlcə Harkourt Lordenə (Kanada), ardınca Edqar Kontrerasa (Venesuela) şans verməyərək yarımfinala vəsiqəni təmin edib. Birinci Avropa Oyunlarının qalibi yarımfinalda İtaliya təmsilçisi Kladio Treviso ilə qarşılaşmada da inamlı qələbə qazanaraq finala yüksəlib. Lakin idmançımız həlledici döyüşdə rəqibinə uduzaraq gümüş medalla kifayətlənməli olub.

Yunan-Roma güləşi üzrə yarışların ilk günündə 59, 71, 80 və 98 kiloqram çəki dərəcələrində güləşçilər mübarizə aparıblar.

80 kiloqram çəki dərəcəsində yarışlarda iştirak edən yığma komandanın üzvü Rafiq Hüseynov finala vəsiqə qazanıb. İlk görüşdə Estoniyadan Hardo Tutsu məğlub edən (8:2) idmançımız sonra litvalı Yulius Mateuzeviçusa 4:0 hesabı ilə qalib gəlib.

Yarımfinalda Ermənistan idmançısı Sargis Koçaryanla görüş də Rafiq Hüseynovun qələbəsi ilə nəticələnib (4:1) və güləşçimiz finala yüksəlib. Finalda onun rəqibi olan Rusiya təmsilçisi Yevgeni Saleevi 5:0 hesabı ilə məğlub edərək dünya çempionu olub. Bununla da R.Hüseynov hərbçilərin VI dünya idman oyunlarında ölkəmizə ilk qızıl medalı qazandırıb.

Yunan-Roma güləşi yarışlarının ikinci günündə Cavid İbrahimli (75 kq) və Soltan İsmayılov (85 kq) xalça üzərinə çıxacaqlar.

Xatırladaq ki, komandamız 1 qızıl, 3 gümüş və 6 bürünc medal qazanmaqla ümumilikdə 10 medala sahibdir.



* * *

Sonuncu gün mübarizəyə qoşulan idmançılarımız da uğurla çıxış edib̧lər.

Yarışlarda 49 kiloqram çəki dərəcəsində mübarizə aparan, Birinci Avropa Oyunlarının bürünc mükafatçısı Patimat Abakarova bütün rəqiblərini yarışdan kənarlaşdıraraq turnirin qızıl medalını qazanıb.

Kişi taekvondoçulardan Səid Quliyev (-74 kq) yalnız finaldakı rəqibinə məğlub olaraq oyunları gümüş medalla başa vurub.

Xatırladaq ki, komandamız 2 qızıl, 2 gümüş və 6 bürünc medal qazanmaqla ümumilikdə 12 medala sahibdir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# İdman

## AFFA-nın əməkdaşı "Zorki" - "Atletiko Madrid" oyununa təyinat alıb

AFFA-nın Beynəlxalq Əlaqələr Şöbəsinin əməkdaşı Könül Mehdiyeva futbol üzrə qadınlardan ibarət komandalar arasında UEFA Çempionlar Liqasının 1/32 final mərhələsinin oyununa təyinat alıb. O, oktyabrın 15-də Rusiyanın Ximki şəhərindəki "Rodina" stadionunda keçiriləcək "Zorki" (Rusiya) - "Atletiko Madrid" (İspaniya) qarşılaşmasının UEFA nümayəndəsi olacaq.

## Tbilisidə yunan-Roma güləşçilərinin IV Avropa çempionatı start götürüb



Oktyabrın 11-də Tbilisidə eşitmə qabiliyyəti zəif və nitqi qüsurlu olan sərbəst və yunan-Roma güləşçilərinin IV Avropa çempionatı başlayıb.

Azərbaycan bu yarışda iki idmançı ilə təmsil olunur. Oktyabrın 17-dək davam edəcək turnirdə 14 ölkədən 237 yeniyetmə və gənc müxtəlif çəki dərəcələrində güclərini sınayacaq.

## Futbol üzrə İtaliya millisi "Avro-2016"-ya vəsiqəni Bakıda rəsmiləşdirib



Oktyabrın 10-da futbol üzrə "Avro-2016"-nın seçmə mərhələsi çərçivəsində "H" qrupunda yer alan Azərbaycan və İtaliya yığma komandaları qarşılaşıb.

Bakı Olimpiya Stadionunda keçirilən görüşdə İtaliya millisi 3:1 hesabı ilə qalib gələrək 2016-cı ildə Fransada keçiriləcək Avropa çempionatına vəsiqəni rəsmiləşdirib.

## Azərbaycanın iki boksçusu dünya çempionatının finalına yüksəlib




Oktyabrın 12-də Qətərin paytaxtı Dohada boks üzrə dünya çempionatının yarımfinal mərhələsinin növbəti görüşləri keçirilib. Yarımfinalda mübarizə aparan üç boksçumuzdan ikisi finala vəsiqəni təmin edib.

Millimizin üzvü Elvin Məmişzadə (52 kq) yarımfinalda əlcəzairli Məhəmməd Flissi ilə döyüşdə vaxtından əvvəl - birinci raundda qalib gələrək dünya çempionatının finalına yüksəlməklə yanaşı, "Rio-2016" Yay Olimpiya Oyunlarına lisenziya qazanıb. Onun finaldakı rəqibi kubalı İosbani Veytia olacaq.

Dünya və Avropa çempionu Albert Səlimov (60 kq) isə braziliyalı Robson Donato Konseysaoyla ilə üz-üzə gəlib. Boksçumuz dueldən qalib ayrılıb - 3:0. A.Səlimov da finalda kubalı boksçu ilə qarşılaşacaq. Onun rəqibi dünya çempionu Lazaro Alvares olacaq.

Birinci Avropa Oyunlarının qalibi Pərviz Bağırov (69 kq) isə dünya çempionu Daniyar Yeleusinovla (Qazaxıstan) görüşüb. Gərgin keçən qarşılaşma rəqibin üstünlüyü ilə yekunlaşıb. Beləliklə, idmançımız dünya çempionatını bürünc medalla başa vurub. Qazaxıstan təmsilçisi finalda qalib gələcəyi təqdirdə P.Bağırov Olimpiya Oyunlarına lisenziya əldə edəcək.

Oktyabrın 11-də Azərbaycan milli komandasının üzvü Abdulqadir Abdullayev (91 kq) ilk dəfə çıxış etdiyi dünya çempionatında bürünc medalla kifayətlənib.

**AZƏRTAC-ın materialları əsasında**

# Xarici hərbi xronika

## Hindistanda servis mərkəzinin tikintisi həyata keçirilir

Hindistanın Çandiqarx şəhərində Mi-17B-5 helikopterlər parkına xidmət göstərmək üçün servis mərkəzi tikilir. Mərkəzdə BK-2500 mühərriklərinin təmiri və avadanlıqların yerləşdirilməsi üçün 16 təmir xətti təşkil edilib. Holdinq rəhbərinin verdiyi məlumata görə, işlərin başa çatmasından sonra Mi-17B-5 helikopteri Çandiqarxda yerləşən zavodda təmir olunacaq. Bu da onyn xidmət xərcinin azalmasına gətirib çıxaracaq.

Verilən məlumata görə, 2008-ci ildə Rusiya Hindistana 80 ədəd Mi-17B-5 helikopterinin verilməsi haqqında müqavilə bağlayıb və bu proses 2011-2013-cü illərdə həyata keçirilib. 71 ədəd belə helikopterin alınması bu ilin sonunda həyata keçiriləcək.

## F-35 qırıcısı tarixin ən böyük "ağ fil"idir

Amerika hərbçiləri ən müasir qırıcı ilə fəxr edirlər. Aviasiya inşaatçıları onu baha qiymətə təklif edir və onun qiyməti getdikcə artmaqdadır. Amerikanın özündə F-35 qırıcısını "ağ fil" adlandırırlar.

Lockheed Martin istehsalçıları onu o qədər müasir hesab edirlər ki, üç il bundan əvvəl ABŞ və Böyük Britaniya çoxlu sayda silahı etmək istəyirdi. Tədqiqat müəssisəsinin rəhbəri Con Marşal bu təyyarənin çox baha və bəzi texniki nöqsanlarının olduğunu qeyd edib. Hazırda Amerika aviaistehsalçıları qırıcıda təkmilləşdirmə işləri aparırlar. 2012-ci ildə təyyarənin qiyməti 50 milyon dollar idisə, hazırda onun qiyməti iki dəfədən çox artaraq 130 milyon dollar təşkil edib. Britaniya 72 ədəd F-35 qırıcısını əldə etmək üçün 9,3 milyard dollar vəsait xərcləməyi nəzərdə tutub.

## Pilotlu və pilotsuz uçan aparatlar alınacaq

2016-cı ilə nəzərdə tutulmuş maliyyə büdcəsinə əsasən, ABŞ 492 ədəd pilotlu və pilotsuz uçan aparatları və 13 ədəd F-35C göyərtə qırıcılarını əldə edəcək. Artıq bu il 15 ədəd təyyarənin alınmasına vəsait ayrılması üçün razılıq verilib və Cent-Luisedəki zavod "Boinq" şirkətinin istehsal xəttini 2017-ci ilə qədər saxlamağa imkan verəcək.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

***Əsgər! Bu sözün mahiyyətindən qürur hissi duyuruq. Əsgər atalarının üzündə bir məğrurluq, gözlərində sevincə köklənmiş hisslər duyulur həmişə. Bu müqəddəs kəlmə bəzən təsəvvürümüzdə xoş xatirələr, bəzən də yaddaşlarımızda müharibənin odlu-alovlu anılarına xas olan ovqat yaradır.***

*Düşüncələr*

# Əsgər dostluğu



Bir hərbi jurnalist kimi belə düşünürəm ki, Vətən qarşısında öz övlad borcunu layiqincə yerinə yetirən əsgərlər cəmiyyətin qürur ünvanıdır. Oğullar Vətən üçün müqəddəs borcunu yerinə yetirməyə yollanarkən bu adın ucalığını yüksək vətənpərvərlik hissi ilə duyurlar. Vətən adlı müqəddəs torpağın xidmətində dayanmaq hər bir azərbaycanlının ən müqəddəs amalıdır. Bu, ali vəzifədir, çünki Vətən hamımızındır...

Əsgərlik həyatı gənclərin həyatında əsl dönüş nöqtəsi, həyat həqiqətlərinin dərindən dərk olunduğu məkandır. Ordudan tərxis olunan əsgərlərlə həmsöhbət olmaq, onların xatirələrini dinləmək həmişə adamda xoş ovqat yaradır. Onların qürurla danışdıqlarını, düşmənə qarşı amansız savaşlarda gördüklərini, duyduqlarını dinləmək hər kəsin səvərək yaşadığı anlardandır. Əsasən onlarda müşahidə etdiyim maraqlı məqamlardan ən önəmlisi bir-birilərinə mehribanlığı, sözün əsl mənasında, əsgər dostluğudur.

Dostluğun qədrini bilənlər xalq, el-oba içərisində hər zaman sayılıb seçiliblər. Dostluq insanların bir-birinə sanki bir ailənin doğma övladı kimi qardaş olması, duyduqlarını, düşüncələrini paylaşmasıdır. Cəmiyyətimizdə bunun ən böyük örnəyini hərbi xidmətdə olan oğullarımızın timsalında görə bilərik. Səngərdə dayananda, düşmənə sinə gərəndə, əlindən tutacaq ana, ata, bacı, qardaş əli olmayanda onların əsas dayağı özləri olur. Əsgərlik dostluğuna el arasında adətən "çətin günün dostu" deyirlər. Çünki onlar neçə illər keçsə də, bu dostluğu unutmurlar. Axı onlar bir vaxtlar bir-birilərinə qardaş, ata əvəzi olublar. Biri xəstələnəndə o biri başının üzərində dayanıb, biri düşmənin qarşısında sinə gərəndə kürəyini o birinə söykəyib, biri anası yadına düşəndə başını dostunun sinəsinə sıxıb, göz yaşlarını qəlbinə axıdıb. Məgər belə dostluq unudularmı?

Ailənin ilk övladı olan Əkbər Səmədov Naxçıvandakı "N" hərbi hissəsində xidmət edib. İcazə verildikcə Əkbər evlə telefon əlaqəsi saxlayır, komandirlərinin diqqət və qayğısından ağızdolusu danışırdı. Bir də can dostu Kamaldan...

Hərbi xidmətə eyni gündə gəlmişdilər. Əkbər Neftçaladan, Kamal isə Naxçıvandan. Vətənə sədaqət andını da eyni gündə içmişdilər.

Fevralın 24-ü idi. Necə gün idi ki, dayanmadan qar yağırdı. Şaxta kəsir-tökürdü. Əsgərlər istirahət otağında televizora baxırdılar. Xocalı faciəsi ilə bağlı veriliş gedirdi. Qəlblərdən keçən hissləri sözlə ifadə etmək çətin idi. Yanaşı oturmuşdular. Əkbərə o an elə gəlmişdi ki, Kamalın ürəyinin döyüntüsünü eşidir. Baxışları toqquşmuşdu. Hər ikisinin gözlərində qisas alovu yanırdı. İkisini də eyni bir dərd danışdırırdı. Fikirləri üst-üstə düşmüşdü...

O gündən aralarında səmimi bir münasibət yaranmışdı. Bu münasibət hər keçən gün daha da böyüyüb əsl dostluğa çevrilmişdi.

Valideynləri görüşə gələndə Kamal Əkbəri də onlarla tanış etmişdi. Belə bir məsəl var: "Dost dosta tən gərək". Hər iki gənc mərd, vətənpərvər, qoçaq idi. Buna görə də bir qayda var, əslən naxçıvanlı olanlar qısa müddətli məzuniyyətə gedəndə başqa rayondan olan əsgərlərdən bir nəfəri də özü ilə evə aparırlar. Kamal da Əkbəri evlərinə apardı. Kamalın atası Adil əmi, anası Zeynəb xala Əkbəri də doğma övladlarından ayırmadılar, onu qucaqlayıb bağırlarına basdılar. Onunla elə davrandılar ki, sanki o da bu ailənin bir övladıdır. Əkbər evlərinə zəng edəndə Kamalgildə olmasını, onu necə mehribanlıqla qarşılayıb, doğma övladlarından ayırmadıqlarını bildirmişdi və ailələr beləcə tanış olmuşdular. Əkbərin atası İbrahim kişi onları ailəlikcə Neftçalaya qonaq çağırmışdı. Məzuniyyət başa çatanda Adil əmi hər ikisini bağrına basıb demişdi: "Əsgər dostluğu sınanmış dostluqdur. Daim bir-birinizə arxa, kömək olun".

Bu dostluq indi də səmimiyyətlə davam edir...

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

Baş leytenant Xəlilov Elnur Rövşən oğluna 2011-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Xəlilov Qüdrət Məhəmməd oğluna 2014-cü ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 807
Nüsxə 4710